Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 16 (1096) 20 aprel 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# YARIMÇIQ ÖMRƏ ELEGİYA



Əbil Əbilov - daha dəqiqi Əbil Etibar oğlu - bir az da dəqiqi Əbil İmamverdi nəvəsi... O, kişinin nəvəsi olmaqdan söhbət gedir ki, onun ətrafında bütöv bir mənəvi qalaktika yaranıb. Bu qalaktikada hərəkət edən planetlər öz işığı, gücü ilə əslində, başqa qalaktikalara işıq vermək, güc vermək iqtidarındadır. Məsələn, Neftçalada İmamverdi Əbilovun sferasında, onun akvatoriyasında Azərbaycanın ən qüdrətli sənətkarları görünüb. Əslinə qalsa, İ.Əbilov bu ərazidə Heliosentrik sistem kimi öz gücünü qoruyub saxlayıb. Və Azərbaycanın ən görkəmli sənətkarları bu dairədə, bu ətrafda onun böyüklüyünü təsdiq etmək naminə görünüblər.

Mən əvvəllər elə bilirdim ki, İmamverdi Əbilov doğulduğu torpaqda yaşayıb ömrünü başa vuracaq və onun bütün kitab-dəftərini, əlyazmalarını, yazı-pozularını yığıb gətirib ədəbiyyat arxivinə, ədəbiyyat muzeyinə təhvil verəcəklər. Gələcəkdə hansısa bir sözçünün bu sənədləri araşdıracağı ümidi ilə. Amma tarix və tale göstərdi ki, belə deyil. Azər Turan kimi bir ziyalı onun ocağında yetişdi. Və doğrusu, boynuma alıram ki. mənə elə gəlirdi; İmamverdi Əbilovun ocağında bitən ağac elə Azər Turandır. Amma sən demə, onun digər qardaşı Etibar Turan Əbilov da kifayət qədər ədəbi müşahidələrə, ruhi-mənəvi duyğulara atasının mənəvi irsinə sahib olan bir ziyalıdır. Və onun yetirdiyi İmamverdi Əbilovun nəvəsi olan Əbil adlı gəncin ədəbi-poetik düşüncələri, xüsusilə bir "Sevda türküsü" adlanan essesi göstərir ki, xalqımızın bağrından necə bir istedadlı gənc pərvəriş tapırmış. Onun hələ dörd-beş il bundan əvvəl qələmə aldığı "Sevda türküsü" essesində qarşılaşdırılan obrazlara diqqət eləmək kifayətdir. Dəvə tikanı ilə gül fidanı.

Ümumiyyətlə, gənc Əbilin düşüncələrində həyatın axarı təbiətin axarı ilə müvazi görünür. Mövsümlərin dəyişməsi, kainat kitabının vərəqlənməsinə bənzədilir. Bir sözlə, ya göydəki bulud, ya da yerdəki, dənizin dibindəki yosun gənc Əbilin nəzərində toxunulmazdır, qüdrətlidir, onun mənəvi ölçüləri ilə bu obrazların təkcə əzəməti, gücü-qüdrəti yox, həm də ecazkarlığı, gözəllikləri görünür. Gənc Əbil küləklərə müraciət edir və yalnız onun toxunulmaz hesab elədikləri obrazları küləklər titrətmək gücündə ola bilər. Küləklər zamanın, dövranın, dünyanın obrazıdır. Ona görə dəyişəndir, ona görə bəzən Allahsızdır, ona görə bəzən haqsızdır. Ona görə, bəzən onun səmti bilinmir

...Bəlkə, elə gənc Əbili də aparan elə bu küləkdir. Ona ən müxtəlif səbəblər gətirilə bilər. Necə ki, Əzrayıl aldı mələk bir dəfə ağlaya-ağlaya Tanrının hüzuruna getdi: mənim gücüm çatmır, bu, çox ağır işdir bir ucdan insanları öldürmək. Tanrı da ona dedi ki, hərəyə bir bəhanə verirəm, heç kim səndə günah görməyəcək.

* * *

Mən A.Zeynallını vaxtsız aparan bəhanə ilə barışa bilmərəm.

* * *

Mən Dobralyubovu vaxtsız aparan bəhanə ilə barışa bilmərəm.

* * *

...Mən Evarest Qaulanı vaxtsız aparan bəhanə ilə barışa bilmərəm. Mən Müşfiqə görə, bütün bəşəriyyətin əvəzində özümü günahkar bilirəm. Mən Belinskiyə görə bu riyakar və ikiüzlü cəmiyyətdə heç vaxt özümü haqsız hesab edə bilmərəm.

İndii gənc Əbilin ölümü üçün kimin məsuliyyət daşıdığını hər kəs özü düşünməlidir. Söhbət elə bir gəncdən gedir ki, onun tale yolu sözdən keçəcəkdi. Sözün qüdrəti ilə onun parlaq obrazı nəinki müasirləri üçün, lap elə gələcəyin insanları üçün bütün aydınlığı ilə görünəcək və qəbul ediləcədi.

26 yaş. Əbil Etibar oğlu, İmamverdi Əbilovun nəvəsi olaraq elm vəz əka sahibi olan bu günc nəyə qadir olacaqdı? O, hansı fikir və düşüncələrlə yaşayırdı? O, gələcək üçün ümumiyyətlə, bəşər nəsli üçün düşüncələri necə sözə çevirəcəkdi? Bunu ondan qalan əlyazmalar və elə indii təqdim olunan "Sevda türküsü" əsəri, essesi kifayət qədər aydın məlumat verir. Bir sözlə, sevda türküsü olmaq, sevda nəğmələri oxumaq həyat və cəmiyyət haqqında, dünya və təbiət haqqında könül nəğmələri oxumaq deməkdir. Həm də türkücə oxumaq deməkdir.

Əbil Etibar oğlu bir istedadlı türk övladı idi. Çingizxan ilk və ən sınaqlı bir döyüşdə gənc oğlunu görmür. Döyüşdən sonra - və qələbədən sonra oğluna həvalə elədiyi qalaçaya atını çapır. Və elə həmin qalaçadan çıxan bir çaparla qarşılaşır. Cuci xan - Çingiz xanın oğlu atasına xəbər göndərirdi ki, mən son nəfəsimdə olduğum üçün döyüşdə iştirak edə bilmədim, məni əfv elə. Çingizxan oğlunu edam eləməyə gəlmişdi. Amma oğlunun son nəfəsində özündə güc tapıb ölüm ayağında olduğu üçün, döyüşdə iştirak edə bilmədiyinə əfv diləməsini başa düşdü, son anda oğlunun başını qolları arasına aldı.

Əbil Etibar oğlu gələcəyi parlaq olan bir ulduz ola bilərdi. Amma hər halda bu gün üçün də onun haqqında kifayət qədər aydın danışmaq üçün əsas qoyub. 26 yaş və 26 yaşın müqabilində müasir dövrün təfəkkür zirvəsindən boylanan fikir işıqları. Bu işıqlar söz və düşüncə mahiyyəti olaraq onun yadigar qalan yazılarında həmişə görünəcək.

* * *

Əbil Etibar oğlu, səni kiminlə müqayisə etmək olar. və bu müqayisələr hansı cəhətlərinə görə uğurlu sayıla bilər. Axı həyatda hər kəsin öz yeri, öz ünvanı var. Və sənin özünü də bu mənada kimsə ilə müqayisə etmək qəsdimiz də yoxdur. Bəli, dünyada gənc olaraq həyatı bitirmiş, özü də ən müxtəlif səbəblərdən dünyasını bitişmiş istedadlar az deyil. Evarest Qalua - riyaziyyatçı, Lermontov - şair, M.Müşfiq - şair, Dobrolyuqov - tənqidçi, Məmməd İsrafilov - bəstəkar, Asəf Zeynallı - bəstəkar və sair. Heç şübhəsiz, ilkin yaddaş axarında yadımıza gələn adları çəkdik. Onların simasında bəşər nəslinin və bütövlükdə dünyanın nə dərəcədə günahkar olub-olmadığını düşünmək olar. Məsələn, mən həmişə düşünmüşəm ki, A.Zeynallı repressiya qurbanıdır. Halbuki A.Zeynallı yatalaq xəstəliyindən tələf olub. Yəni mən razılaşmıram ki, bir gənc istedad taleyin hansısa bir təsadüfi nəticəsində avtomobil qəzasındamı, hansısa təhlükəli bir virusdanmı ömrünü başa vurur. Dəxli yoxdur, bircə işartı, bircə çimdik torpaq qoxusu verən, bir xəzəl yarpağının rəngini göstərən söz kimdən qalıbsa, yaxud bir elm işığı hansı təfəkkürdən qopub qalıbsa, onun sahibini yaşarı edəcək. Elə buna görə də İmamverdi Əbilovun, Azərbaycanın çox müdrik alim və sənətçisinin yanğılarını başa düşməliyik. Və elə onun təmkini də bu ağır dərdin önündə dözümünü də sözün həqiqi mənasında bir şeyx müdrikliyi, bir ağsaqqallıq qüdrəti kimi qəbul etməliyik. Axı zaman-zaman tale Azərbaycan üçün çox ağır sınaqlar meydanı olub. Və ən böyük insanların sinəsi çəkilməz dağlar məkanı kimi görünüb və göz dağı olaraq əbədi olaraq göz önündə qalıb.

* * *

Həmin günlərdə mən Azər Turanı gördüm. Əbilin ölümü haqqında xəbər verdi. Nədənsə qavraya bilmədim. Adi bir ölüm kimi qarşıladım. Bu, mənim biganəliyim, soyuqluğum deyildi. Bəlkə də, yüzlərlə gəncin Qarabağ savaşında gözlərim önündə güllə yarasından ömrünü bitirməsi ilə bağlı bir hissiyyat yaddaşımda göyərmişdi. Bəlkə də bu hissiyyat məni keyləşdirmişdi. Bəlkə, ona görə Azər Turanın dilindən bu ağır dərdi gətirən xəbəri soyuq və donuq baxışlarla dinləyirdim. Əvəzində İmamverdi Əbilova - XX əsrin klassikinə salam göndərirdim. Guya ki, bu ağrının, bu acının heç İmamverdi Əbilova dəxli yox imiş.

İndi həmin hisslərin ağır təəssüratı altında danışıram - günahkar-günahkar, ağrılı-ağrılı danışıram.

* * *

Bəzən bizi sıxan dünyanın nə istədiyini görə bilmirik. Bizi istədiyi istiqamətdə zərbələrə məruz qoyur, maddi sıxıntılar qarşısında iradəmizin necə əzildiyini öz gözlərimizlə görürük. Halbuki bizim maddi imkanımız olsaydı dünyanın bu maddi tələbətlar imtahanında boynumuzu bükməzdik. Bütün bunlar bir tərəfə, maddi çətinliklərin, gərginliklərin olmasını, maddi ağırlıqların boyunduruğa çevrilib insanları necə sıxdığını və o cümlədən, bizi də öz məngənəsində necə sıxdığını təsvir etməyə sözün gücü çata bilmiz. Lap elə olsun sözlərin soyuq donuna bürüyüb "mən kasıbam, mənim imkanım yoxdur" deyə bilərəm. Amma başqası üçün bunun dəxli yoxdur. Başqasına görə, bu, mənim tərəfimdən bir acizlikdir, bir zəiflikdir, hətta heysiyyətsizlik təsiri də bağışlaya bilər. Halbuki, elə məsələlər var ki, o, mənim imkanımdan, gücümdən artıq ola bilər. Axı cəmiyyət özü kifayət qədər imkan verməlidir ki, mən gücümü göstərə bilim, imtkdadımı sübut eləyə bilim. İstedadımın və gücümün müqabilində cəmiyyətdən öz haqqımı ala bilim.

...Əbil Etibar oğlu yaşayacaq. Tale onlara qarşı nə qədər ədalətsizdirsə, bizim qəddar hesab elədiyimiz cəmiyyət taleyə qarşı o qədər barışmazdır. Zaman-zaman yaşanacaq bir ömrün gücünü gələcək ənsillər görəcək.

Əbil Etibar oğlunu yüz yaşında da xatırlayacaqlar. Sadəcə, onun bizdən bir fərqi olacaq. O, həmişə gənc olacaq.

* * *

Əbil Etibar oğlundan fərqli olaraq bizim necə yaşayacağımızı və necə xatırlanacağımızı hələ tam təsəvvür etmək olmaz.

* * *

... "Sevda türküsü"nü yazan qələm həmişə aranacaq. Sevdalar əbədiyyət qədər uzunömürlüdür. Nə qədr insanlıq var, sevdalar da var. türkülər isə Orxon-Yeniseydən üzü o yana və üzü bəri həmişə müqəddəs nəğmələr kimi oxunur.

**Ə.XƏLƏFLİ**
*30.12.2010*